# Aprel döyüşləri Vətən müharibəsində zəfərin başlanğıcı idi



***Azərbaycan xalqının çağdaş tarixində Aprel döyüşlərinin böyük əhəmiyyəti vardır. Məhz bu ağır döyüşlərdə işğalçı Ermənistan üzərində qazanılan ciddi hərbi uğur dörd il sonra 44 günlük şanlı Vətən müharibəsində Azərbaycanın möhtəşəm tarixi zəfərinin əsasını qoymuşdur. Tam əminliklə demək olar ki, Aprel döyüşləri böyük qələbənin başlanğıcı olmuşdur.***

Məlumdur ki, 2016-cı ilin aprel ayının 2-də Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində erməni hərbi birləşmələrinin atəşkəs rejimini pozmasına cavab olaraq, Azərbaycanın Hərbi Qüvvələri geniş əks-hücuma keçmişdir. Tarixə “dörgünlük müharibə” kimi düşən döyüşlər nəticəsində işğal altında olan təxminən 800 hektara yaxın ərazi azad edilərək, Azərbaycanın nəzarətinə keçmişdir. Döyüşlər nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Aprel döyüşlərinin əhəmiyyətindən danışarkən demişdir: “Biz sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq son illər ərzində aldığımız ən müasir, - mən onu bir daha qeyd etmək istəyirəm, - dünyanın ən müasir silahları bizə çox böyük imkan yaradır. Aprel döyüşləri zamanı biz sadəcə olaraq imkanlarımızın cüzi bir faizini nümayiş etdirdik. Bu, bir daha onu göstərir ki, aprel döyüşləri Ermənistanın təxribatı idi. İndi bəziləri müxtəlif versiyalar, fərziyyələr irəli sürürlər ki, Azərbaycan əməliyyat keçirməyi planlaşdırırdı, o da sonra dayandırıldı və sair. Birincisi, biz nəyi etmək istəmişiksə, onu da etmişik. Əks-hücum əməliyyatında qarşımızda hansı hədəflər durmuşdusa, biz o hədəflərə də çatdıq”.

Bəli, Aprel döyüşləri regionda hərbi qüvvələr nisbətini Azərbaycanın xeyrinə birmənalı olaraq dəyişdirdi. Dövlətimizin başçısı bu amili nəzərə alaraq demişdir: “Bu gün hərbçilər və beynəlxalq mütəxəssislər bilirlər ki, əldə etdiyimiz strateji mövqelər tamamilə vəziyyəti dəyişdirib. Əgər aprel döyüşləri zamanı genişmiqyaslı əməliyyat keçirmək fikrində idiksə, biz öz hərbi potensialımızdan istifadə edərdik. Bunlar sirr deyil. Burada hər şey beynəlxalq monitorinq altındadır. Bilirlər ki, bizim uzaqmənzilli raketlərimizin, pilotsuz döyüş aparatlarımızın gücü nədən ibarətdir. Biz onlardan demək olar ki, istifadə etmədik. Amma əgər istifadə etsək, işğal olunmuş torpaqlarda düşmənin daşı-daş üstdə qalmayacaq. Bunu onlar bilsinlər və özünü növbəti dəfə biabır edən Ermənistanın siyasi rəhbərliyi danışığına fikir versin və bizim səbrimizlə oynamasın”.

2016-cı il aprelində baş verən döyüşlərdə qazanılan uğur Azərbaycan xalqının Böyük Qələbəyə olan inam hissini gücləndirdi. Xalqın öz dövlətinə və liderinə olan inamı daha da artdı. Düşmən isə, əksinə, tezliklə biabırçı məğlubiyyətə məruz qalacağını dərk edərək kəskin təşvişə düşdü. Ən başlıcası, Aprel döyüşləri cinayətkar erməni rəhbərlərinin “keçilməz erməni səngərləri” haqqında mifi alt-üst etdi.

“Dörgünlük müharibə”nin həmin dövr üçün əsas əhəmiyyəti ondan ibarət idi ki, Dağlıq Qarabağ münaqişəsi “donmuş konflikt” statusunundan çıxaraq, potensial qaynar nöqtə statusu qazandı. Məhz bu döyüşlərdən sonra həm münaqişə tərəfləri, həm vasitəçi ölkələr, həm də, ümumiyyətlə, regionda maraqlı olan bütün dövlətlər problemə yanaşmalarını dəyişməklə yanaşı, məsələ ətrafında apardıqları siyasətə də korrektələr etməli oldular.

Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, artıq regionda yeni reallıq yaranmışdı və istənilən qüvvə bu reallığa uyğun siyasətini qurmalı idi. Ən əsası, Aprel döyüşləri, Azərbaycanın Ermənistan üzərində hərbi üstünlüyünü nümayiş etdirdi. Azərbaycan cəmiyyəti münaqişənin hərbi yolla həllini kütləvi şəkildə dəstəkləməyə başladı. Ölkə iqtidarı isə bu sosial sifarişi yerinə yetirmək əzmində və gücündə olduğunu bütün dünya ictimaiyyətinə nümayiş etdirdi.

Aprel döyüşlərinin nəticələri Ermənistan cəmiyyətinə təsirsiz ötüşmədi və əhali arasında onsuz da etimadını itirməkdə olan Serj Sarkisyan hakimiyyətinin dayaqları daha da zəiflədi. İllərdir Azərbaycan və Türkiyənin işğala cavab olaraq tətbiq etdikləri blokada, həmçinin, cinayətkar Koçaryan-Sarkisyan rejiminin yarıtmaz idarəçiliyi nəticəsində Ermənistanın düşdüyü acınacaqlı vəziyyətdə hakimiyyətin siyasi reytinqini təmin edən yeganə amil bu klanın qonşu ölkənin torpaqlarını nəzarətdə saxlaması idi. “Dördgünlük müharibə” Ermənistan əhalisinin erməni ordusunun yenilməzliyinə olan inamını alt-üst etdi.

Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin prinsipial, qətiyyətli siyasəti sayəsində Azərbaycanın ardıcıl şəkildə qazandığı diplomatik uğurlar, Ermənistan rəhbərliyini çətin vəziyyətdə qoyur, həmçinin işğalçı ölkə beynəlxalq iqtisadi layihələrdən kənarda qalırdı. Dövlət başçımızın Azərbaycan Ordusunun Aprel qələbəsinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüşündə də qeyd etdiyi kimi, Ermənistan öz müstəqil həyatını Azərbaycan torpaqlarının işğalına qurban vermişdir. Lakin bu hal uzun sürmədi. Xalqımızın şanlı Vətən müharibəsində qazandığı tarixi zəfər nəticəsində Ermənistan işğalın ağır bədəlini ödəməli oldu. Düşmən faktiki olaraq qalib Azərbaycan Ordusu qarşısında kapitulyasiyaya məcbur edildi!

Ermənistan indi revanşist niyyətlərindən əl çəkib reallıqla barışmalıdır. Prezident İlham Əliyev dəfələrlə qətiyyətlə bildirib ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt icazə verilməyəcək. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi Azərbaycanın tərkibində həmişə olub, bu gün də onun tərkibindədir, gələcəkdə də olacaq!

Qeyd etmək lazımdır ki, 2016-cı ilin aprel ayında Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatından sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində geniş tikinti-quruculuq işlərinə başlanılmışdır. Prezident İlham Əliyevin tapşırığına əsasən Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan məscid ucaldılmışdır. Cocuq Mərcanlıda Şuşa məscidinin tikilməsi təsadüfi deyildi. Burada iki mesaj var idi. Birinci o idi ki, Azərbaycan İslam dünyasının bir parçası olaraq öz tarixi keçmişinə, milli-mənəvi, əxlaqi dəyərlərinə hər zaman sadiq qalacaq. İkinci mesaj olaraq isə Şuşa məscidinin bənzərinin inşası həm də o anlama gəlirdi ki, gün gələcək Azərbaycan əsgəri Şuşanı da işğaldan azad edəcək, Şuşadakı həmin məscid də bərpa ediləcək. Belə də oldu...

2016-cı ilin Aprel döyüşlərində əldə edilən böyük hərbi uğurun məntiqi nəticəsi olaraq 2020-ci ildə Vətən müharibəsində xalqımızın əbədi və əzəli torpaqları olan Qarabağ düşmən işğalından tamamilə azad edildi. Lələtəpədən başlanan şərəfli yol Şuşa zəfəri ilə bitdi. Prezident İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxışında demişdir: “Əziz hərbçilər, noyabrın 8-i xalqımızın tarixində əbədi qalacaq. Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir”.

Dövlətimizin başçısı sonra fəxrlə vurğuladı ki, o, Şuşaya Qələbə yolu ilə gəlmişdir. O yol indi açılıbdır, yol yox idi. Dağlardan, meşələrdən, dərələrdən keçərək, onlarla kilometr məsafəni qət edərək qəhrəman Azərbaycan hərbçiləri yol boyunca kəndləri, qəsəbələri düşməndən azad ediblər, Şuşa şəhərinə yaxınlaşıblar, Daşaltı kəndini azad ediblər və ondan sonra Şuşanı işğalçılardan azad ediblər. Bu, böyük və şanlı qəhrəmanlıq salnaməsidir!

Sonda bir daha vurğulamaq istərdik. Aprel döyüşləri tarixi Şuşa zəfərinə yol açmışdır. Bu şanlı qələbə naminə xalqımız böyük itkilər vermişdir. Lakin şəhidlərimizin qisası yerdə qalmamışdır. Bəli, qəhrəman şəhidlərimizn müqəddəs ruhları şaddır. Xalqımız Vətən müharibəsində parlaq tarixi qələbə qazanaraq öz ərazi bütövlüyünü təmin etmişdir. Azərbaycan xalqına, onun bütün igid əsgər və zabitlərinə eşq olsun!

***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***